# ƏDALƏT SALMANIN POETİK MƏRAMI



*Şəddat CƏFƏROV,*
*iqtisadiyyat elmləri üzrə fəlsəfə doktoru,*
*Azərbaycan və Rusiya Yazıçılar və Jurnalistlər Birliklərinin üzvü, Beynəlxalq Yazarlar Birliyinin üzvü*

Azərbaycan ədəbiyyatı mənim nəzərimdə orqanizmə bənzəyir. Ədəbi yaradıcılığın ən müxtəlif janrları - istər nəsr olsun, istər poeziya, istərsə də, ədəbi publisistika... bir-birilə sıx əlaqədədir. Biri digərinin inkişaf etməsinə, qol-qanad atmasına bu və ya digər dərəcədə təsir göstərir. Elə mövzular var ki, poeziyanın onu axıracan bütün qaranlıq küncünə qədər işıqlandırmaq imkanı olmur. Onda geniş həyati lövhələri özündə ehtiva edən nəsr qabağa çıxır. Hekayələr, povestlər, romanlar ədəbi-bədii düşüncənin imkanlarını göstərə bilir. Əlbəttə, insan hisslərinin, duyğularının qısa, lakonik şəkildə ifadəsində poeziyanın əvəzsiz rolu danılmazdır. Söz yox ki, dəyişən həyatın sürətli inkişafına uyğun düşüncə məhsulları da var ki, bu da publisistikada publisistik formada reallaşır. Mənim düşüncəmə görə, sənətkar hansı janrda yazırsa, yazsın, hansı ədəbi növün imkanlarından istifadə edirsə, etsin, dəxli yoxdur, təki insandan uzaq düşməsin. Həyatı yazsın, həyatla bağlı düşüncələrini yazıya gətirə bilsin.

Necə ki, bütün janrlar bir-birilə əlaqəlidir, eləcə də, ayrı-ayrı bölgələrdə yaşayıb-yaradan sənətkarlar da bir-birinə təsirsiz ötüşmür. Doğrudur, ədəbi mühitin əsas qüvvəsi paytaxtda cəmlənib. Ancaq bu o demək deyil ki, Sumqayıtda, Lənkəranda, Gəncədə, Qazaxda yaşayan sənətkarlar bir-birindən təcrid olunub. Xeyir, əgər ədəbi mühiti diqqətlə izləsək, görərik ki, sənətkarlar bir-birilə sıx əlaqə saxlayır. Hətta son vaxtlar Yazıçılar Birliyinin daha yeni bölmələri yaradılır. Bu da yazıçıların, söz adamlarının təşkilatlanmasına, ədəbi müzakirələrdə sıx iştirak etməsinə, bir-birinin yaradıcılığına münasibət bildirməsinə imkan verir.

Son dövrlərdə ədəbi mühitimizin ən zəngin və rəngarəng yaradıcılıq imkanı olan ərazilərdən biri də Cəlilabad rayonudur. Bu rayonun əhatəsində olan şairlər, yazıçılar, tənqidçilər, publisistlər, demək olar ki, ədəbi fəallıqlarına görə çox qabarıq görünür. Bu mühitin yaradıcılıq imkanlarını danmaq olmaz.

İstər nəsrdə, istərsə də, poeziyada, ədəbi tənqiddə özünü təsdiq etmiş bir çox sənətkarlar var ki, onlar elə Cəlilabadın özündə yaşayıb yaradırlar. Cəlilabadda söz mühitinin fəal təminatçılarından biri də Ədalət Salmandır.

Ədalət Salman sözün daim haləsində olan, həyatını birmənalı şəkildə sözə bağlamış olan şairdir. Onun ədəbi kredosu birbaşa sözlə bağlıdır. Həyata münasibətində də elə sözün əsas aparıcı təsir gücü daha aydın hiss olunur. Professor Vaqif Yusifli Ədalət Salmanın "İlahi, sən bizi sözə bağışla" kitabına yazdığı "ön söz"ə onun şeirlərindən bir bəndi epiqraf gətirir:

Bu da bir ömürdü, verilib mənə,
Bu da bir taledi, mən yaşayıram.
Əllərim bənzəyir quş dimdiyinə,
Halal ocağıma dən daşıyıram.

Ədalət Salman ədəbi mühitə gəldiyi gündən diqqəti cəlb edib. Obrazlı deyimləri, sərrast poetik ifadələri hələ zamanında bir çox görkəmli sənətkarların diqqətini cəlb edib. Onlardan biri də Vaqif Yusiflidir.

İnsafən Vaqif Yusifli ədəbi mühitimizin cəfakeşlərindən biri kimi haqqında yazdığı müəlliflərin yaradıcılıq yolunu dəqiq izləyə bilir. Hələ çox illər əvvəl, bir az da dəqiqləşdirsək, 20 il əvvəl Ədalət Salmanın yaradıcılığına xüsusi dəyər verir. Xəlil Rza Ulutürkün qeydlərini olduğu kimi xatırlayır: "Ədəbiyyat və incəsənət" qəzeti redaksiyasının şeir şöbəsində tanış olduğum gənc şair Ədalət Salman dərhal yadımda qaldı.

"Vağzalı" çalınar, dağlar bəy durar,
Boynundan asılar ağ şəlalələr.

Yalnız şair belə deyə bilər. Rəsul Rzanın gözəl bir sözü var: qələm sahibi vur-tut bircə gözəl şeir yaza bilsə, şair adlanmağa layiqdir. Bu o deməkdir ki, o öz varlığındakı şeir bulağının gözünü aça bilər. Fitri istedad ilkin şərtdir. Lakin hər şey məhz bundan sonra bağlanır. Fitri qığılcımı alışdırıb mənəvi, ədəbi məşələ çevirmək üçün dəyanət, şair qəhrəmanlığı tələb olunur.

"Xeyirxah insanlar, əl verin mənə.
Sizə arxalanıb yola çıxıram".

Mən əvvəl istədim bu beytə irad tutam ki, şair heç kəsə deyil, yalnız öz iradəsinə, yalnız öz mənliyinə arxalanmalıdır. Sonra gördüm ki, Ədalət Salman hər yetəndən deyil, yalnız xeyirxah insanlardan qayğı umur. Nəcib diləkdir. Uğur olsun, Ədalət!". Zənnimcə, bu qeydlər iki böyük ədəbiyyat bilicisinin fikrinin ifadəsidir. Əlbəttə, birinci növbədə bütün qaydalarda xüsusi sərtlik göstərə bilən X.R.Ulutürkün verdiyi dəyər əsasdır. Ancaq onu da deyək ki, V.Yusiflinin özü də Ədalət Salmanın yaradıcılığını böyük səmimiyyətlə dəyərləndirə bilir. Çünki o, Ədalət Salmanın poeziyasında həm bəşəri həqiqəti, həm də milli vətəndaşlıq heysiyyəti duyğularının necə həssaslıqla ifadə olunduğunu müşahidə edir.

V.Yusifli Ədalət Salmanın vətən və vətənçilik hissləri haqqında elə duyğu və doğmalıqla söhbət açır ki, bu da istər-istəməz şairin yaradıcılıq haləsində xüsusi bərq vuran fikir işıqlarının oxucuya çatmasında əvəzsiz xidmət göstərir.

Ədalət Salmanın "Vətən" şeirinə təhlil verərkən sanki vətən tarixinin son qərinədəki ağrı və dərdlərinin hamısını gözlərinin önündən keçirir. Və bu məcrada fikirlərini ifadə edir.

Vətənə çoxları sevgisini bildirən şeirlər həsr edib. Vətənin yaralarını öz canında duyub bu ağrını sözə bələyərək yazan şairlər, əlbəttə, çoxdur. Amma vətən anlamından sui istifadə edən, özünü vətənsevər şair kimi təqdim edənlər də az deyil. Və bu yanaşma ilə Vaqif Yusifli Ədalət Salmanı elə "Vətən" şeirinə görə fərqləndirir və oxucu diqqətini də onun bu şeirinə yönləndirir:

Qaçqına, köçkünə yardım adıyla
Əl açıb yadları dilənən Vətən.
El-el, mahal-mahal sovrulub gedən.
Divlər xəlbirində ələnən Vətən.

Yetər axıtdığın bu göz yaşları.
Ovxarla pas atmış qan yaddaşları.
Öz qızıl teştində qızılbaşları
Öz qızıl qanına bələnən Vətən.

Hayqır, şahə qalxsın bədöy atların,
Silaha sarılsın ər övladların.
Qırsın qandalları qoy qanadların
Təbrizdən Dərbəndə bölünən Vətən.

Kimsəyə sirr deyil ki, Qarabağ uğrunda dövlət başçısı ardıcıl və inamlı mübarizə apardı. Nəyahət, Azərbaycan ordusunun müsəlləh hazırlığı ilə düşmənə dəmir yumruq zərbəsi vuruldu. Nəticədə, erməni vandalizmi cəzasını aldı. Beləliklə, daha bir həqiqət də meydana çıxdı. Qarabağ uğrunda mübarizədə sözsənət adamları birmənalı şəkildə dövlətlə birləşdi, ordunun yanında oldu. Ali Baş Komandana mənəvi dayağı ilə dəstək verdi. Professor Vaqif Yusifli Ədalət Salmanın yaradıcılığını ardıcıl olaraq izləyir və nəhayət, çox səmimi düşüncələrlə fikrini yekunlaşdırır: "Ədalət Salmanın şeirlərində günümüzün, gerçəkliyimizin ab-havası öz əksini tapır və məsələ burasındadır ki, müəllif həyatın müxtəlif ziddiyyətlərini, ictimai-siyasi hadisələri, müasir insanın Vətənlə, yurdla bağlı duyğu və düşüncələrini çılpaq və ritorik şəkildə deyil, öz içindən keçirərək təqdim edir. Yəni şair ürəyinin dalğaları dünyanı, məmləkəti, insanlıq aləmini tuta bilir. Bu mənada həyatda, yaşadığı mühitdə adi bir hadisə də şairi təsirləndirir. "Anasının ümidinə qalan uşaq" şeirini götürək. Şair uşağın göz yaşlarında başqa mənalar axtarır:

Ağlamaqla
ümid çiçəkləsəydi, -
qəlbimizdən Təbrizə uzanan körpünü
Arazın üstündən salardıq,
Ağlaya-ağlaya
dünyadan kamımızı alardıq.
Yetər,
öz içindən qırıla-qırıla
gözlədiyin səbr qınında,
öz ümidinə sığın,
yaşa ümidinin işığında.

Ədalət Salmanın lirik duyğulu qəhrəmanı sevgi şeirlərində də səmimidir, hisslərinin saflığı ilə diqqəti cəlb edir. Yaşanılan hisslərin poetik ifadəsi güclü olan şeirləri az deyil ("Bağışla", "Bu gecə bu yağış xətrimə dəyir", "Sən mənim nəyimi sevirsən axı", "Bəsimdi" və s.).

Ədalət Salmana - altmış yaşına gəlib çatmış bu gözəl şairimizə yeni yaradıcılıq uğurları arzulayıram". Göründüyü kimi, Vaqif Yusifli Ədalət Salmanın xüsusi işıq saçan poetik ifadələrinin məkanı olan şeirlərin adlarını da çəkir.

Hər bir şairin elə ifadələri var ki, bu ifadələr onların poetik portretini dəqiq göstərir. Biz həmin ifadələri yada salmaqla şairin özünü diqqətə çəkə bilirik. Səməd Vurğunda da belə ifadələr az deyil. Məmməd Rahimin də öz obrazını təqdim edən misraları şeirləri çoxdur. Bu sıradan Süleyman Rüstəmin də, Rəsul Rzanın da, Söhrab Tahirin də, digərlərinin də adlarını çəkə bilərik. Bu mənada güclü poetik ifadələrin yada salınması əslində şairin portretini göstərmək missiyası daşıyır. Ədalət Salmanın haqqında söz açdığımız kitabı o şeiri ilə başlayır ki, müəllif elə kitabını da həmin şeirin adı ilə həmahəng verib.

Maraqlıdır ki, yuxarıda qeyd etdiyimiz kimi şairlər bir-birinin misralarından od götürür, birində ifadə olunan fikrin onun düşüncəsində necə əks-səda verdiyini özünün əsəri ilə üzə çıxara bilir. Bu mənada Ədalət Salman da haqqında danışdığımız şeirinə Ramiz Qusarçaylının iki misrasını epiqraf gətirir: "Bu gün kitabımın birini satdım, bir kilo ət aldım balalarıma". İlk baxışdan burada problem yaradan heç nə görünmür, amma daha dərindən nüfuz etdikdə şairin yaşadığı həyatın ağrılı mühitini görə bilirik. Bu da istər-istəməz həmin misralardan təsirlənən şairin daha yeni aspektdə poetik düşüncələrini üzə çıxarır.

Zənnimcə, həmin şeirin dörd bəndini olduğu kimi oxucuya çatdırmaq mahiyyətin onun təsəvvüründə daha aydın üzə çıxmasını, canlanmasını göstərə bilər:

Zəmanə utansın, bu misralardan,
Üzü qara olsun fani dünyanın.
Ehtiyac şairi salır vüqardan,
İnsafı, mürvəti hanı dünyanın.

Mələklər tanrıdan yetirər ruzu,
Bəndələr şairin üzünə baxmaz.
Dönəndə əlləri ətəkdən uzun,
Evdə qadını da sözünə baxmaz.

Haqq nahaq önündə durub müntəzir,
Bu yalan dünyada düz axtarırıq.
İndi hamı düşüb var-dövlət gəzir,
Bizsə gecə-gündüz söz axtarırıq.

İlahi, sən bizi sözə bağışla,
Sözlə yediririk balamızı da.
İlahi, sən bizi, biz bağışla,
Onsuz da çəkirik bəlamızı da.

Ədalət Salman istər Qarabağ müharibəsinin döyüşçülərini, istərsə də, yaradıcılıqlarından od aldığı sənətkarların obrazlarını yazıya gətirməkdə çox israrlıdır. Onun Qarabağ döyüşlərində əlil olmuş Maşallah Əliyevə, milli qəhrəmanımız Mübariz İbrahimova və digərlərinə həsr olunan şeirlərində biz təkcə qəhrəmanların özlərini yox, elə həm də onların obrazlarında vətəni görə bilirik.

Söz yox, Ədalət Salmanın Rəsul Rzaya, Bilal Alarlıya, digər söz-sənət adamlarına həsr olunmuş şeirləri də az deyil. Xüsusilə onun şeirlərində vətən nəinki ecazkar təbiəti ilə görünür, həm də yaraları ilə boya-boy gözlərimizin önündə canlanır. Buradan belə nəticə çıxır ki, şairlər sanki vətən xəritəsinin keşikçiləridir. Onlar vətənin xəritə sərhədlərini poetik düşüncələrində dəqiq, aydın təsəvvür edir və hər sözünü də sənətkarlar bu xəritənin sərhədlərində keşikçi qoyur. Ədalət Salmanın çox gözəl, üççə bəndlik bir "Azərbaycan" şeiri var. Bu şeir xüsusi bir ittiham duyğusu ilə qələmə alınıb.

Yaxşı olar ki, "Azərbaycan" şeirinin özünü bütün hiss və həyəcanları ilə qavramaq üçün birlikdə oxuyaq:

Azərbaycan - özü boyda nəhəngim,
Azərbaycan - nərə çəkən pələngim.
Azərbaycan, kim qarğıdı səni, kim,
Yetmədimi o daş atsın, bu dansın?!

Azərbaycan - sənin, mənim papağım,
Nədən olsun onun, bunun tapdağı?
Azərbaycan - bu müqəddəs torpağım
Nə vaxtadək qarış-qarış budansın?!

Uzaq getməz haqq yolunu azanlar,
Özü düşər bizə quyu qazanlar.
Tariximi bu gün saxta yazanlar
Keçmişimi varaqlayıb, utansın!

Ə.Salman şairlərin belə bir missiyasını yaxşı dərk edir və bunu özünün poetik yaradıcılığında dəqiqliklə qoruya bilir. Bu da şairin vəkillik missiyasıdır. Harada bir haqsızlığa kim tuş gəlirsə, şair də onun yanında olmalıdır. Məhz Ə.Salmanın poetik düşüncəsində bu ovqat hakimlik missiyası daşıyır. O hər vaxt özünü haqlının yanında görür.

*(Davamı 11-ci səhifədə)*

# ƏDALƏT SALMANIN POETİK MƏRAMI

*(Əvvəli 10-cu səhifədə)*

Dostum Əli Rza Xələflinin Ə.Salmanın poetik düşüncələri ilə bağlı qeydləri mənim üçün məntiqimi şərh etmək baxımından əhəmiyyətli olduğuna görə, oxucuların diqqətinə çəkirəm: “Cəlilabad ədəbi mühiti mənə çox doğmadır. Bu mühitdə görkəmli nasir Meyxoş Abdullanı yaxından tanımışam. Sıx dostluq əlaqələrim olub. Çox nadir istedad sahiblərindən biri Vəliyulla Novruzla sevgili dostluq münasibətimi heç vaxt unutmuram. Eləcə də Bilal Alarlının, Əfrayim Abbasın, Ələddin Əzimlinin və digərlərinin də adlarını çəkə bilərəm. Onların da hər birinin ədəbi mühitimizdə yeri var. Mən bu şairlərin, söz-sənət adamlarının mənəvi mühitlərinə onların haqq qapısından daxil olmuşsm. Çünki onlar sözləri, sənətləri ilə hər vaxt həqiqətin tərəfində olublar. Ümumiyyətlə, cəmiyyətə, həyata, insana münasibətdə şairlərin mövqeyi nə qədər çox aydın olursa, xalq da onları bir o qədər sevir və uca tutur. Bir zaman Məmməd Arazın “Məndən ötdü”, yaxud Bəxtiyar Vahabzadənin məşhur şeirindən bəzi misralara diqqət edək:

Kənara çəkilmə, bil ki, bu gündən  
Bu gün mənə varsa, sabah sənə var.

Yaxud daha sərrast digər misraları da yada salmaq olar:

Bu gün yeyilirsə birinin haqqı,  
Sabah sənin haqqın yeyiləcəkdir.

Düşünürəm ki, Ədalət Salman da poetik yaradıcılığında insanı məhz özünə diqqət etməyə çağırır. Əgər insan öz təbiətindən gələn kəm-kəsirləri vaxtında duyarsa, onda cəmiyyətin ağrı çəkdiyi bir qara nöqtə vaxtında aradan qalxar.

Ədalət Salmanın bu düşüncələri ehtiva edən çox sərrast bir şeiri var:

Günahı axtarma sən özgələrdə,  
Hamıya tor qurar öz adamları.  
Mənəvi dəyərlər itdiyi yerdə  
İlahi, nə çəkir söz adamları.

Adam var, fikirdən sübhədək yatmır,  
Yalançı şüar başını qatmır.  
Dərdini deməyə cürəti çatmır,  
İçini yandırır köz, adamların.

Hər gün gah vaydayıq, gah da ki toyda,  
İtib başımız da bu soyasoyda.  
Baxırsan, namərdi, mərdi bir boyda,  
De, necə ayırsın göz, adamları?

Ə.Salman insan münasibətlərinin birxətli olmadığını yaxşı bilir. Ən başlıcası, o elə insanın özünü də eyni rəngdə görmür. Onun yaratdığı obrazların təzadlı tərəfləri də az deyil. Bütün hallarda Ədalət Salman istəyir ki, insan təzadlarla döyüşə-döyüşə tərəfində olduğu güc qalib gəlsin. Demək, mübarizələr birinci növbədə insanın öz varlığında meydan açır. Nəticədə qalib gələn tərəf - əlbəttə, bu şairin arzusudur - insanlıq olur. İnsanın ədalətli tərəfinin qələbəsi cəmiyyətin mənəvi sağlamlığı üçün əsil müalicə məqamıdır.

Ədalət Salman bu günkü şeirimizi dəryada yolunu azmış gəmi kimi təsəvvür etsə də, hətta şeirimizin ot-alaq basmış zəmiyə bənzədiyini desə də, əslində də parlaq poetik düşüncə imkanları ilə poeziyanın uğurlu və işıqlı tərəflərini də yaxşı görür və özü də poeziyanın daha hərarətli, daha işıqlı mühit yaratmasına az xidmət göstərmir. Zənnimcə, Ədalət Salman birinci növbədə “Məndən ötdü”, yaxud ən gərgin məqamlarda “kənara çəkilmə”nin bəlalarına qarşı döyüşür. Elə əsil şairlik missiyası da budur. Axı şair vətənin, xalqın əvəzində canından keçməyə hazır olan, ölümü gözünün altına almış döyüşçüdür. Ədalət Salman poetik imkanlarına görə bugünkü söz savaşında güclü döyüşçülərdən biridir”. Xələflinin bu qeydlərini sosial şəbəkədən əxz etməyim təsadüfi deyil. Axı “Kredo” qəzetinin özü də ədəbi mühit mərkəzidir. Bu mərkzədə demək olar ki, gündəlik ən müxtəlif ədəbi istiqamətli sənətkarların əsərləri oxunur və müzakirə edilir. Şübhəsiz, belə müzakirələrin sözü ilə iştirakçılarından biri də Ədalət Salmandır.

Axı yuxarıda qeyd etdim ki, Ədalət Salman müasirləri ilə birgə nəfəs alır. Onların nəinki yaradıcılığını ardıcıl izləyir, həm də bir çoxları ilə canlı ünsiyyət qurmaqda israrlıdır.

Ə.Salmanın konkret olaraq ünvan tutduğu sənətkarlar az deyil. Ancaq onlardan birinə xüsusilə qəlbindən gələn səslə həsr etdiyi şeiri oxumaq qəlbimi fərəh hissi ilə doldurdu. Belə qənatə gəldim ki, təkcə sözündə yox, həm də həyatda təbiəti ilə, şəxsiyyəti ilə haqqın tərəfindən olan sənətkarların təqdir olunması cəmiyyətin insanlığa inamını təmin edir. Hər kəsdə belə bir hiss formalaşır ki, əgər mən haqlı olsam, ədalətli olsam, onda cəmiyyət nə vaxtsa məni bütün aydınlığı ilə görə biləcək və əməlimi təqdir edəcək.

Dayandur Sevgin ədəbi mühitimizdə sevilən şairlərdən biridir. O, bütün ədəbi tədbirlərdə, söz yığıncaqlarında yaxından iştirak edir, həmkarlarının nəinki sevincini bölüşür, eləcə də kədərli, qayğılı günlərində yanında olmağı özünə borc bilir. Elə bu səbəbdən də Ədalət Salmanın Dayandur Sevginə həsr etmiş olduğu çox gözəl bir şeirini oxuculara ərməğan edirəm:

Bir gör yaşayırıq hansı zamanda,  
Bu gün söz üyüdür yoldan azan da.  
Mən nələr çəkmədim şeir yazanda,  
Yaz mənim şeirimin qonararını.

Söz-söz əriyirəm şam kimi,  
Sözləri yonuram daş yonan kimi.  
Mən belə yazıram şeirlərimi,  
Yaz mənim şeirimin qonararını.

Şair var baxma ki, öz gözü toxdu,  
Bu gündən sabaha ümidi yoxdu.  
Evində əlinə göz dikən çoxdu, -  
Yaz mənim şeirimin qonararımı.

Sözdən çıxarıram duz-çörəyimi,  
Halal çörəyimi, düz çörəyimi.  
Belə qazanıram öz çörəyimi,  
Yaz mənim şeirimin qonararımı.

Ayırmır yaxşıdan pisi gözümüz,  
Urvatdan, kəsərdən düşür sözümüz.  
Salmayaq qiymətdən, barı özümüz, -  
Yaz mənim şeirimin qonararımı.

Dayandur Sevginə həsr olunmuş şeirin motivi bir əsas həqiqəti təsdiq edir. Yəni bu dünyada xeyirxah insanların, yaxşı insanların zəhməti heç vaxt itmir.

Əslində bu bəşəri bir ideyadır. Ən başlıcası, Ədalət Salmanın özü bu ideyanı inkişaf etdirir. Və “Bu dünyada yaxşılıqlar qalacaq” adlı şeiri ilə məramını insanlara çatdırır.

Həyatda, cəmiyyətdə, bir sözlə, mühitimizdə baş verən hadisələri və əlbəttə, bir çox hallarda haqsızlıqları biz dünyanın ünvanına yazırıq. Obrazlı olsa da, şairlər də cəmiyyətdə baş verən haqsızlıqların günahkarı kimi birinci növbədə dünyanı görür. Bu mənada Ədalət Salmanın dünyanı ittiham edən şeiri də var. Beləliklə, dünyadakı haqsızlıqların qəbul edilməz bir acı sonluğu da var. Bu da haqlı adamların, yaxşı adamların dünyanın təzyiqlərinə dözməyib vaxtından əvvəl həyatdan getməsidir.

Ədalət Salman bütün hallarda şərə qarşı mübarizədə sabit-qədəmdir. O, mənəvi olaraq şeytanın insanın içindəki xislətinə kəskin ittihamlar oxuyur. Və nəhayət, o daha üstün bilir “Üzünün nuruna üz tutduğun insan, nə xoşdur nurlu adamlarla üz-üzə, çiyin-çiyinə olasan”. Çox dəyərlidir. Yəni, həqiqətin tərəfində olasan, doğrunun yanında olasan, bununla da əsil insani borcunu yerinə yetirmiş olarsan.

Ədalət Salman üçün həyatın bütün məqamlarında poeziya var. O, bu poeziyanı bütün rəngləri ilə görə bilir, varlığına çəkir. Və nəhayət, varlığından poetik obrazlar kimi insanlara ötürür.

Axı biz dedik ki, Ədalət Salman üçün həyatın bütün məqamlarında poeziya var. Körpə bir qızcığazın qızılgül qönçəsinə bənzədilməsi, quru bir budağın nə qədər faydalı olduğuna diqqəti yönəltməsi, əlləri qoynunda olan bir gəlinin düşüncələri - bütün bunların hamısı Ədalət Salman üçün şeirdir.

Ədalət Salman yorulmadan özünü savaşçı kimi şeirlərində göstərə bilir. Məşhur bir ifadə var, təki vətən yaşasın. Hərbi hissələrin, işğaldan azad olunan ərazilərin görkəmli yerlərində də bu ifadə ağ daşlarla, bayraq rəngi ilə bəzədilərək yazılır.

Ədalət Salmanın “Təki vətən yaşasın” düşüncəsi əlil döyüşçülərə müraciətlə yazdığı şeirdə daha aydın görünür.

Sağkən qiymətiniz verilməlidi, -  
Qoy sizə qəhrəman adənə verək!  
Sizə söz çələngi hörülməlidi,  
Sağkən heykəliniz qoyulsun gərək!

Heç nə qıra bilməz inadınızı,  
Bir gün xoş müjdəni tarixə yazın.  
Siz qurban verdiniz həyatınızı,  
Təki yurd yaşasın. Vətən yaşasın!

Qələbə eşqi var dağ köksünüzdə,  
Siz yenə keşikdə durmusuz ayıq,  
Döyüşə gedəndə başınız üstə  
Biz sizi bayraq tək qaldırmalıyıq!

Haqqında söhbət açdığımız kitabda verilən şeirlər İkinci Qarabağ savaşından xeyli əvvəl qələmə alınıb. Amma bu şeirlərin hamısında mübarizəyə, savaşa çağırış var. Çünki Ədalət Salmanın özünün düşüncəsində torpağın bir gün azad olunacağına inam onu heç vaxt tərk etməyib. Bu qələbə ruhlu insanı yaşadan, onun hisslərini və həyəcanlarını göstərə bilən şeirlərin yazılmasının əsas səbəbi də məhz şairin inamı ilə bağlıdır.

Doğru deyirlər ki, şairin tərcümeyihalı onun şeirləridir. Ə.Salman da bütün şeirlərində məhz müşahidə etdiyi hiss və həyəcan doğuran məqamları yazıya alır. Haqqında söhbət açdığımız kitabda digər bölmələrə toplanmış şeirlər də var. Bu bölmələrdən biri ünvanlı şeirlər adlanır. Bu ünvanlı şeirlərin motivi çox maraqlıdır. Əslində konkret olaraq heç bir ad çəkilmir. Ancaq elə konkret ittiham var ki, biz sanki şeirdə təsvir olunan insanın özünü görürük: “Əlindən tutub yerdən qaldırdığım insan, durandan sonra niyə badalaq vurursan?” - nə qədər dəqiq və parlaq obrazdır. Elə bil ki, bu adamı biz də tanıyırıq. Onu həyatımızda neçə dəfə görmüşük. Bu da həyatın maraqlı təzadlarından biridir. Beləliklə, bu silsilədən bir neçə misralıq duyğular şairin həm də hansı ağrı ilə yaşadığına işıq salır.

Bu bölmədəki şeirlər əslində insanlıqdan imtina etmiş insanların obrazlarını göstərir. Onların qılaflanmış təbiətlərini üzə çıxarır.

Bir sözlə, biz bütün hallarda insanı yandıran insancığazların qara rəngə bürünmüş maska altından şeytani nəzərlərini də hiss edirik.

Ədalət Salman poetik yaradıcılığında həyatın müxtəlif tərəflərinə işıq tutan şeirlərinin mövzu əhatəsi çox genişdir. Əlbəttə, onun sevgi notları da az deyil. Onun sevgi şeirlərinin gözəllik obrazı saflığa güvənir, sağlam təbiətli insanların sevgisini yazmaq əslində həyat ritmlərini yazmaqdır.

Şübhəsiz, sevgi olan yerdə həsrət də var, vüsal da var. Amma həsrətli duyğuları yazmaq bütün hallarda insanı həyatın gözlənilməzliklərinə, iztirablarına dözümə hazırlayır. Dözümün mahiyyəti, gücü əslində elə insanın özünü qoruma vasitəsidir.

Onun maraqlı bir sevgi şeirini də istərdim ki, oxucular özləri qiymətləndirə bilsinlər.

Yanağı alma çiçəyi,  
Dodağı gül ləçəyi.  
Ay qızların göyçəyi,  
Gözünü qaldır, halımı gör.

Arxamca gözü dolanım,  
Durum başına dolanım.  
Bircə qəlbimdir olanım,  
Gülüm yox, deyəm saçına hör.

Yaşıdına bir bax barı,  
Çiçək-çiçək balaları.  
Gedək “Vağzalıya” sarı  
Gedək, bəxtim əlini ver.

Nə deyim? Ədalət Salman ləyaqətlə sevməyi böyük mərdlik hesab edir. Onun düşüncəsinə görə kim ləyaqətlə, sədaqətlə sevə bilirsə, özünün uca insanlıq adını hifz etmiş olur. Bütün həyatın, mühitin dəyəri insanların bir-birinə sevgi ilə bağlanmasındadır. Birmənalı şəkildə qeyd etmək lazımdır ki, min illərdir ki, şairlər sevgidən yazır, uca və ali sevgini tərənnüm edir. Amma heç vaxt bu mövzu köhnəlmir. Əlbəttə, hər kəs özünün poetik gücünə güvənərək sevgini tərənnüm edir. Əgər belə demək mümkünsə, hər kəs sevgidə öz obrazını yaradır, tərəf müqabilini əzizləyir.

Ədalət Salman da sədaqətlidir və bu hissi, bu duyğunu yazmaqda israrlıdır.

Ə.Salmanın dərin ictimai məzmun daşıyan əsərləri də az deyil. Onun bu kitabda nisbətən kiçik həcmli bir lirik poeması var. Əsər “Əhməd bağı” adlanır. Şair Əhməd adlı bağbanın yaratdığı bağı təsvir edir. Bu bağın necə gözəlliklər məkanına çevrilməsinin əsas mənbəyini məhzx bağbanın zəhmətində görür. Bağban öz zəhmətini, tərini sərf edərək ağaclar əkir, güllüklər yaradır və bununla da insanlara könül xoşluğu bəxş edir. Amma bir vaxt gəlir ki, bu bağ sahibsiz qalır. Və elə dilində deyildiyi kimi qanan insanların yandırıcı dağına çevrilir. Son nəticədə şair qayğısız qalan ağaclarla qayğısız qala biləcək körpələri poetik müayisəyə çəkir və çox sərrast bir düşüncə ilə cəmiyyətə öz sözünü deyir:

Burda ögeylikdən, baxımsızlıqdan  
Quruyub bulaqlar - qan damarımız.  
Meh əsir, diskinib qorxuruq inan,  
Qalmayıb əvvəlki o vüqarımız.

Biz heç, barı bizim pöhrə nəvələr,  
Qayğısız qalmasın, “sonsuz” olmasın.  
Bura yolu düşsə, bir kəsin əgər,  
Qəlbi sızlamasın, gözü dolmasın.

Şair, dərdimizi biz sənə ddik,  
Yazanda bu Əhməd bağından da yaz.  
Biz ki, insanlara əmanət idik,  
Axı, “əmanətə xəyanət olmaz!”

Beləliklə, ədəbi arenada özünün poetik nəfəsi, kifayət qədər mükəmməl poeziyası ilə tanınan daha bir şair haqqında müxtəsər də olsa, düşüncələrimizi yazıya gətirdik. Zənnimcə, elə bu deyilənlər də bəs edir ki, Ədalət Salmanı kifayət qədər təsəvvür edə bilək.

Yəqin ki, gələcək qeydlərimizdə Cəlilabaddan olan digər şairlərin də yaradıcılığına diqqət göstərəcəyik.

***2023***